2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 8 sentyabr 2024-cü il tarixli 63 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri 10 sentyabr 2024-cü il

Mən, ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərov 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (bundan sonra – Milli Məclis) növbədənkənar seçkilərdə 78 saylı Lənkəran kənd seçki dairəsindən qeydə alınmış namizəd Əzizov Əzizxan İman oğlunun Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) daxil olmuş 8 sentyabr 2024-cü il tarixli 63 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü kimi tərəfimdən icraata qəbul edilmiş və vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipi əsas götürülərək araşdırılmış, bu barədə rəy verilmişdir.

Ə.İ.Əzizov müraciətində seçki günü müşahidə aparılması zamanı müşahidəçilərə maneələr yaradıldığını, səlahiyyəti olmayan şəxslərin seçki prosesinə müdaxiləsini, seçki qutularına birdən artıq bülleten atıldığını, səslərin müşahidəçilərin müşahidəsi olmadan səsvermə otağından kənarda sayıldığını, səsvermənin nəticələrinə dair tərtib edilmiş protokolların nüsxəsi tələb edilsə də onlara təqdim edilmədiyini, məntəqə seçki komissiyası sədrlərinin protokolların nüsxələrini təqdim etmədən məntəqəni tərk etdiklərini, səslərin sayılması zamanı elan olunan nəticələrlə Mərkəzi Seçki Komissiyasının rəsmi saytında verilmiş nəticələrin uyğun gəlmədiyini və digər qanun pozuntuları olduğunu iddia edərək həmin seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsini və seçki dairəsi üzrə seçkilərin etibarsız sayılmasını, həmçinin dairə seçki komissiyasına eyni məzmunlu müraciəti ilə bağlı həmin dairə seçki komissiyası tərəfindən qəbul olunmuş qərarın ləğvini tələb etmişdir. O, müraciətinə yalnız bir ədəd elektron informasiya daşıyıcısı əlavə etmiş, araşdırma prosesində isə əlavə olaraq daha bir elektron informasiya daşıyıcısı da təqdim etmişdir.

Dairə seçki komissiyası qərarını onunla əsaslandırmışdır ki, səsvermə günü 78 saylı Lənkəran kənd seçki dairəsinin seçki məntəqələrində baş verməsi iddia olunan qanun pozuntuları təsdiqini tapmadığından, səsvermənin keçirilməsi və nəticələrin müəyyənləşdirilməsi zamanı seçicilərin iradəsini sərbəst şəkildə ifadə etməyə imkan verməyən qanun pozuntuları aşkar edilmədiyindən müraciət təmin olunmamışdır.

Araşdırma ilə bağlı müraciət etmiş namizədlə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun araşdırmada və Komissiyanın iclasında iştirakı təmin olunmuşdur.

Dairə seçki komissiyasından mübahisələndirilən qərarın çıxarılması üçün əsas olmuş sənədlər alınaraq araşdırma materiallarına əlavə edilmiş və təkrarən araşdırılmışdır. Araşdırma ilə əlaqədar həmin seçki dairəsi üzrə qeydə alınmış iki namizəddən, seçki dairəsinin mübahisələndirilən seçki məntəqələrində müşahidə aparmış müxtəlif namizədləri, siyasi partiyaları və qeyri-hökümət təşkilatlarını təmsil edən müşahidəçilərdən, eləcə də həmin məntəqə seçki komissiyalarının üzvlərindən

izahatlar alınmışdır.

Müraciətin hərtərəfli və qərəzsiz araşdırılması məqsədilə səsvermə günü sosial şəbəkələrdə həmin seçki dairəsinin seçki məntəqələrində baş verməsi iddia edilən pozuntularla bağlı yayımlanmış görüntülərə, həmçinin müraciətə əlavə edilmiş iki ədəd elektron məlumat daşıyıcısına, seçki məntəqələri üzrə səsvermənin nəticələrinə dair protokollara baxış keçirilmiş, seçki subyektlərindən alınmış seçki sənədləri tədqiq edilərək müəyyən edilmişdir ki, səsvermə günü 78 saylı Lənkəran kənd seçki dairəsinin 29 və 32 saylı seçki məntəqələri istisna olmaqla, mübahisələndirilən digər seçki məntəqələrində baş verməsi iddia edilən qanun pozuntuları təsdiqini tapmamış, seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən hallar aşkar edilməmişdir. Bu baxımdan dairə seçki komissiyası mübahisələndirilən qərarında əsasən düzgün nəticəyə gəlsə də, göstərilən seçki məntəqələrinə münasibətdə düzgün nəticəyə gəlməmişdir.

Belə ki, sosial şəbəkələrdə yayımlanan görüntülərə və təqdim olunmuş videomateriallara baxış keçirilməsi və digər seçki materiallarının təhlili nəticəsində 29 və 32 saylı seçki məntəqələrində səslərin hesablanması zamanı bu və ya digər şəkildə seçkilərin nəticəsinə təsir edə biləcək qanun pozuntuları aşkar edilmişdir. Müəyyən edilmiş qanun pozuntuları seçki qanunvericiliyinin tələblərinə görə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən hal kimi qiymətləndirildiyindən qeyd edilən seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi üçün hüquqi əsaslar yaranmışdır.

Buna görə də 78 saylı Lənkəran kənd seçki dairəsinin 29 və 32 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız hesab edilməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 170.2-ci maddəsində göstərilir ki, dairə seçki komissiyası və ya Mərkəzi Seçki Komissiyası birmandatlı seçki dairəsi üzrə aşağıdakı hallarda seçkiləri etibarsız sayır:

170.2.1. səsvermə keçirilməsi və ya səsvermənin nəticələrinin müəyyənləşdirilməsi zamanı seçki dairəsi üzrə yol verilən qanun pozuntuları seçicilərin iradəsini müəyyənləşdirməyə imkan vermədikdə;

170.2.2. birmandatlı seçki dairəsi üzrə səsvermə zamanı səsvermənin nəticələri etibarsız sayılmış seçki məntəqələrinin sayı həmin seçki dairəsində olan seçki məntəqələrinin ümumi sayının 2/5 hissəsindən çoxunu təşkil etdikdə və ya ləğv edildikdə, o şərtlə ki, həmin seçki məntəqələrində qeydə alınmış seçicilərin sayı seçki dairəsi üzrə qeydə alınmış seçicilərin ümumi sayının 1/4-dən çoxunu təşkil etsin.

Aparılan araşdırma nəticəsində müəyyən edildi ki, sentyabrın 1-də 78 saylı Lənkəran kənd seçki dairəsi üzrə keçirilmiş seçkilərdə səsvermənin nəticələri etibarsız hesab edilən seçki məntəqələrinin sayı seçki dairəsi üzrə seçki məntəqələrinin ümumi sayının 2/5 hissəsindən çoxunu, həmin seçki məntəqələrində qeydə alınmış seçicilərin sayı isə seçki dairəsi üzrə qeydə alımış seçicilərin ümumi sayının 1/4-dən çoxunu təşkil etmir. Belə ki, səsvermənin nəticələri etibarsız hesab ediləcək seçki məntəqələrinin sayı 2, seçki dairəsində olan seçki məntəqələrinin ümumi sayı 53-dür. Bu isə belə qənaətə gəlməyə əsas verir ki, həmin seçki dairəsi üzrə seçkilərin etibarsız sayılması üçün hüquqi əsaslar yaranmamışdır.

Beləliklə, 78 saylı Lənkəran kənd seçki dairəsindən qeydə alınmış namizəd Ə.İ.Əzizovun müraciəti qismən təmin edilməli, həmin seçki dairəsinin 29 və 32 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız hesab edilməli, dairə seçki komissiyasının 4 sentyabr 2024-cü il tarixli 23/83 saylı qərarı 29, 32 saylı seçki məntəqələrinə aid hissədə ləğv edilməli, digər hissələrdə isə dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci, 170-ci maddələrinə əsasən **r ə y ə g ə l d i m:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Milli Məclisə növbədənkənar seçkilərdə

78 saylı Lənkəran kənd seçki dairəsindən qeydə alınmş namizəd Əzizov Əzizxan İman oğlunun 8 sentyabr 2024-cü il tarixli 63 saylı müraciəti qismən təmin olunsun, seçki dairəsinin 29 və 32 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız hesab edilsin.

2. Dairə seçki komissiyasının 4 sentyabr 2024-cü il tarixli 23/83 saylı qərarı 29 və 32 saylı seçki məntəqələrinə aid hissədə ləğv edilsin, digər hissələrdə isə dəyişdirilmədən saxlanılsın.

3. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

**Ekspert qrupunun üzvü** **Bəxşeyiş Əsgərov**